**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "ÇAHARGAH" MUĞAMININ İFAÇILIQ VARİANTLARININ TƏDQİQİ MƏSƏLƏLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Aynurə Rəsul qızı Abuşova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, professor
**Cəmilə İsmayıl qızı Həsənova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Tariyel Aydın oğlu Məmmədov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Əfsanə Ağayar qızı Babayeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Gülnar Əlfi qızı Verdiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Xalq artisti, professor
______________ **Fərhad Şəmsi oğlu Bədəlbəyli**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
______________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, professor
______________ **İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə Azərbaycan muğamlarının tədqiqi musiqişünaslığın gündəmində olan vacib məsələlərdəndir. Azərbaycan muğamlarının UNESCO-nun "Qeyri-maddi mədəni irs" siyahısına salınması, beynəlxalq miqyasda muğam sənətinə həsr olunmuş möhtəşəm festivalların və simpoziumların keçirilməsi, böyük layihələrin reallaşdırılması bu sahədə tədqiqatların aktuallığını şərtləndirir.

Muğamların tarixi və nəzəri cəhətdən araşdırılması muğamşünaslıqda mühüm əhəmiyyətə malik məsələlərdəndir. Muğam irsində hər bir muğamın özünəməxsus yeri və əhəmiyyəti, inkişaf tarixi, təkmilləşmə yolu vardır. Muğamların araşdırılmasında ifaçılıq variantlarının öyrənilməsi çox əhəmiyyətlidir. Bu ifaçılıq variantları muğamın canlı təcrübədə yetişərək, onun nəsildən-nəslə ötürülməsi və dəyişməsi prosesini nəzərdən keçirməyə yol açır. Canlı ifaçılıq təcrübəsi ilə yanaşı, muğamların səs yazılarında və not yazılarında qorunan variantlarında qorunmuş variantları da böyük əhəmiyyət kəsb edir. Bu unikal variantların muğamların təkmilləşməsində mühüm rolunu nəzərə alaraq, onların tədqiqata cəlb olunması da aktual məsələlərdən biridir.

Dissertasiyada bütün bu məsələlər "Çahargah" muğamının timsalında nəzərdən keçirilir, çünki o, Azərbaycan musiqi irsində iri həcmli dəstgahlarından biri olub, muğam ifaçılığında geniş yayılmışdır. Muğamın çoxsaylı ifaçılıq variantları səs yazılarında və not yazılarında qorunaraq bizə gəlib çatmışdır. Bu gün də müxtəlif nəsil muğam ifaçıları tərəfindən "Çahargah"ın yeni-yeni vokal-instrumental və instrumental təfsirləri meydana gəlir. "Çahargah" muğam üzrə tədris proqramlarında özünəməxsus yer tutmuşdur və eləcə də bəstəkar yaradıcılığında çox müraciət olunan muğamdır. Biz, bütün bunları nəzərə alaraq, "Çahargah" muğamının ifaçılıq variantları, onun tarixi təkamülü, quruluş, məqam və melodik xüsusiyyətlərinin tədqiqi əsasında muğamın öyrənilməsini aktual məsələ kimi irəli sürürük.

Yerli və beynəlxalq miqyasda musiqişünaslıqda muğam sənətinin tədqiqi daim diqqət mərkəzində olan bir məsələdir. XX

əsrin II yarısından başlayaraq, XXI əsrdə bu günə kimi davamlı olaraq keçirilən Şərq makam sənətinin tədqiqinə həsr olunmuş simpozium və konfransların materialları, bir çox görkəmli musiqişünasların çap olunmuş əsərləri bu mövzunun işlənilməsi baxımından qiymətli mənbələrdir. Xüsusilə Azərbaycanda Heydər Əliyev Fondu tərəfindən UNESCO-nun və İSESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı layihələr: "Muğam - İrs", "Muğam - Dəstgah", "Muğam Ensiklopediyası", "Muğam - İnternet", "Muğam - Antologiya", "Muğam dünyası", "Muğam Mərkəzi" kimi layihələr, "Azərbaycan muğamı" tədris vəsaiti, "Qarabağ xanəndələri", "Muğam ensiklopediyası" kimi CD-DVD albomlar və muğam sənəti ilə bağlı zəngin materialları əhatə edən nəşrlər bizim tədqiqatımız üçün xüsusilə dəyərlidir.

Elmi ədəbiyyatda muğam sənəti ilə bağlı müxtəlif elmi problemlərin musiqişünaslarımızın diqqət mərkəzində olduğunu izləyə bilərik.

Üzeyir Hacıbəylinin Azərbaycanda müasir musiqi elminin təşəkkülü və inkişafı üçün əsas bünövrə və möhkəm elmi baza olmuş "Azərbaycan xalq musiqisinin əsasları" elmi fundamental əsərində[1], müxtəlif məruzə və məqalələrində öz əksini tapmış muğam sənətinin tarixi-nəzəri öyrənilməsi ilə bağlı fikirləri elmi tədqiqatlar üçün dəyərli mənbəyə çevrilmişdir.

Muğamın tədqiqi musiqişünasların elmi təcrübəsində aparıcı istiqamət təşkil edir. Məmmədsaleh İsmayılovun "Azərbaycan xalq musiqisinin janrları" monoqrafiyasında[2], "Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerkləri"ndə[3], ilk dəfə olaraq, xalq musiqisinin və muğamın melodik, ritmik, məqam və quruluş formaları istiqamətində nəzəri təhlili ilə bağlı müddəalar elmə daxil edilmişdir.

---

[1] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apostrof, – 2010. – 176 s.

[2] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənmiş və tamamlanmış nəşri / M.C.İsmayılov. – Bakı: İşıq, – 1984. – 100 s.

[3] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi metodik oçerklər / M.C.İsmayılov. – Bakı: Elm, – 1991. – 117 s.

Əfrasiyab Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğəti"ndə[4] ilk dəfə olaraq, Orta əsrlərdə yaşayıb-yaratmış Şərqin böyük mütəfəkkir alimləri, xüsusən, Azərbaycan musiqişünaslarının elmi irsi, eləcə də muğam ifaçıları haqqında monoqrafik məlumat, Orta əsrlərdə və müasir dövrdə mövcud muğamlarla bağlı tarixi məlumat öz əksini tapmışdır.

Muğamın tarixi-nəzəri problemlərinin tədqiqi Ramiz Zöhrabovun "Azərbaycan muğamları"[5], "Azərbaycan təsnifləri"[6], "Çahargah" muğam dəstgahının nəzəri əsasları"[7], "Zərbi-muğamlar"[8], "Azərbaycan rəngləri"[9] və s. tədqiqatlarında əhatə olunaraq, muğamın bütün janrları öyrənilmişdir.

Tədqiqatımız üçün vacib olan aspektdə bir sıra musiqişünas-alimlərin elmi tədqiqatlarına müraciət olunmuşdur.

Muğam sənəti ilə bağlı tədqiqatlardan Zemfira Səfərovanın "Azərbaycanın musiqi elmi (XIII – XX əsrlər)" əsəri[10] Orta əsrlərə aid risalələr əsasında muğam sənətinin inkişafının icmalına həsr olunmuşdur.

Muğamın tədqiqinə müxtəlif aspektlərdən yanaşılmış tədqiqatlar sırasında Elxan Babayevin Azərbaycan muğamlarının ritm və intonasiya probleminə həsr edilmiş monoqrafiyalarını[11], muğamı

---

[4] Bədəlbəyli, Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. / Ə.B.Bədəlbəyli. – Bakı: Şərq-Qərb, – 2017. – 472 s.

[5] Zöhrabov, R.F. Azərbaycan muğamları / R.F.Zöhrabov. – Bakı: Təhsil, – 2013. – 336 s.

[6] Зохрабов, Р.Ф. Азербайджанские теснифы / Р.Ф. Зохрабов. – Москва: Советский композитор, – 1983. – 326 с.

[7] Zöhrabov, R.F. "Çahargah" muğam dəstgahının nəzəri əsasları / R.F.Zöhrabov. - Bakı: – 2000. – 130 s.

[8] Zöhrabov, R.F. Zərbi-muğamlar / R.F.Zöhrabov. – Bakı: Mars – print, – 2004. – 406 s.

[9] Zöhrabov, R.F. Azərbaycan rəngləri (janr, lad-məqam və melodik xüsusiyyətlərin tədqiqi) / R.F.Zöhrabov. – Bakı: Mars – print, – 2006. – 250 s.

[10] Səfərova, Z.Y. Azərbaycan musiqi elmi (XIII−XX əsrlər) / Z.Y.Səfərova. – Bakı: Azərnəşr, – 2006 – 544 s.

[11] Babayev, E.Ə. Azərbaycan muğam dəstgahlarında ritm-intonasiya problemləri / E.Ə.Babayev. – Bakı: Ergün, – 1996. – 128 s.

estetik, psixoloji, fəlsəfi baxımdan əks etdirən Gülnaz Abdullazadənin[12], Sevil Fərhadovanın[13], Rəna Məmmədovanın tədqiqatlarını[14], muğamların quruluş xüsusiyyətləri ilə bağlı tədqiqatlardan Sənubər Bağırovanın[15], Akif Quliyevin[16], Rafiq Musazadənin[17], Şəhla Mahmudova-Həsənovanın[18], Gülzar Mahmudovanın[19], Abbasqulu Nəcəfzadə və Vamiq Məmmədəliyevin[20], muğamların məqam əsasının öyrənilməsinə həsr olunmuş Cəmilə Həsənovanın[21], muğamların ifaçılıq ənənələri ilə bağlı Səadət Verdiyevanın[22] əsərlərini qeyd edə bilərik. Azərbaycan musiqi elmində muğam sənətinin tədqiqi daim gündəmdə olan bir məsələ kimi, dissertasiya və dərs vəsaitlərinin də əsasını təşkil edir.

Musiqişünaslıqda muğamların tədqiqinin not yazıları əsasında aparılması vacibdir, bu baxımdan bir sıra bəstəkar və musiqişünasların nəşr olunmuş not yazıları bu sahədə tədqiqatlar üçün böyük əhəmiyyət kəsb edir. Dissertasiyada muğam ifaçılarının təfsirində həyata keçirilən "Çahargah" muğamının Nəriman Məmmədov tərəfindən

---

[12] Abdullazadə, G.A. Qədim və Orta əsrlərin musiqi mədəniyyəti: tarixi-fəlsəfi təhlil / G.A.Abdullazadə. – Bakı: Qartal, – 1996. – 292 s.

[13] Фархадова, С.Т. Муга – монодия как тип мышления / С.Т.Фархадова. – Баку: Элм, – 2001. – 368 с.

[14] Мамедова, Р.А. Азербайджанский мугам / Р.А.Мамедова. – Баку: Элм, – 2002. – 278 с.

[15] Bağırova, S.Y. Azərbaycan muğamı. Məqalələr, məruzələr, tədqiqatlar. 2 cilddə / S.Y.Bağırova. II cild. – Bakı: Elm. – 2007. – 152 s.

[16] Гулиев, А.Н. Принципы контрастности в музыкальной драматургии азербайджанского мугама / А.Н.Гулиев. - Баку: Шарг-Гарб, – 2009. – 136 с.

[17] Musazadə, R.M. Qədim muğamlar / R.M.Musazadə. – Bakı: – 2013. – 180 s.

[18] Махмудова, Ш.Г. Тема как носитель драматургического процесса в мугаме / Автореферат дис. Кандидата искусствоведения / – Баку, 1994. – 24 с.

[19] Махмудова, Г.Р. Остинатность в музыке устной традиции Азербайджана / Г.Р.Махмудова. – Баку: Адилоглы, – 2001. – 152 с.

[20] Nəcəfzadə, A.İ., Məmmədəliyev V.M. Muğam. Dərs vəsaiti / A.İ.Nəcəfzadə, V.M.Məmmədəliyev.. – Bakı: Min bir mahnı, – 2004. – 224 s.

[21] Həsənova, C.İ. Azərbaycan musiqisinin məqamları / C.İ.Həsənova. – Bakı: Elm və Təhsil, – 2012. – 232 s.

[22] Verdiyeva, S.S. Azərbaycan xanəndəlik sənətinin inkişafında İslam Rzayevin rolu / Sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2016. – 20 s.

vokal-instrumental[23], və instrumental[24] şəkildə, Arif Əsədullayev[25], Əkrəm Məmmədli[26], Fuad Əzimli[27] tərəfindən instrumental şəkildə not yazılarından istifadə olunmuşdur.

Muğamların səs yazıları irsi tədqiqat üçün çox zəngin bir mənbədir. Bu baxımdan XX əsrin əvvəllərindən başlayaraq, bu günə kimi yaranmış müxtəlif xanəndələrin səs yazıları irsində bütün muğamların, o cümlədən, "Çahargah" muğamının çoxsaylı ifaçılıq variantları toplanmışdır. Azərbaycan Televiziyası və Radiosunun "Qızıl fondu"nda, Azərbaycan Səs yazıları Arxivində, eləcə də digər arxivlərdə və fondlarda saxlanılan səs yazıları Heydər Əliyev Fondunun "Qarabağ xanəndələri"[28], "Azərbaycan xanəndələri"[29] və digər nəşrlərinin əsasını təşkil etmişdir. Səs yazıları əsasında "Çahargah" muğamının ifaçılıq variantları təhlilə cəlb olunmuş, onların müəyyən hissələri dissertasiyanın müəllifi tərəfindən nota köçürülərək, təhlildə istifadə edilmişdir.

"Musiqi dünyası" beynəlxalq elmi jurnalı və elektron nəşrlər mərkəzi tərəfindən yaradılmış bir sıra İnternet saytları Azərbaycan muğam sənətinin tədqiqində mənbə rolunu oynayır. Bu baxımdan "Azərbaycan ənənəvi musiqisi"[30], "Muğam ensiklopediyası"[31] saytlarında, eləcə də Üzeyir Hacıbəylinin, Əfrasiyab Bədəlbəylinin, Xan Şuşinskinin adı ilə bağlı saytlarda muğam ifaçılığını əks etdirən zəngin fonoteka və elmi material toplanmışdır.

---

[23] Məmmədov N.H. Azərbaycan muğamı Çahargah [Notlar] / – Москва: Советский композитор. – 1970.

[24] Məmmədov N.H. Azərbaycan muğamları Çahargah və Hümayun. [Notlar] / – Bakı: Azərnəşr. – 1962.

[25] Əsədullayev A.M. Rast, Çahargah [Notlar] / – Bakı: Adiloğlu. – 2004.

[26] Məmmədli Ə.M. Azərbaycan muğamları (instrumental) [Notlar] / - Bakı: Azərbaycan nəşriyyatı. – 2010.

[27] Əzimli F.N. Azərbaycan muğam məktəbi [Notlar] / – Bakı: – 2008.

[28] Qarabağ xanəndələri [CD-disklər] / – Bakı: – 2005.

[29] Muğam ensiklopediyası. Azərbaycan xanəndələri [CD-disklər] / – Bakı: – 2007.

[30] Azərbaycan ənənəvi musiqisi [Elektron resurs] / URL: http://enene.musigi-dunya.az

[31] Muğam ensiklopediyası [Elektron resurs] / URL: http://mugham.musigi-dunya.az

Azərbaycan muğamının tarixi-nəzəri baxımdan öyrənilməsində mühüm əhəmiyyəti olan bütün bu mənbələr sayəsində Orta əsrlərdən başlayaraq, müasir dövrə kimi muğam sənətinin inkişafı ilə bağlı zəngin elmi-təcrübi material musiqi elminə töhfə verilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan muğam irsində özünəməxsus yerə və zəngin ifaçılıq ənənələrinə malik, böyük təşəkkül yolu keçərək müasir dövrdə əsas muğam dəstgahlarından birinə çevrilmiş "Çahargah" muğamı ilə bağlıdır. Tədqiqatın predmetini "Çahargah" muğamının tarixi və nəzəri əsaslarının öyrənilməsi, muğam sənətinə həsr olunmuş elmi ədəbiyyatın, müxtəlif illərdə işıq üzü görmüş səs yazılarının və not yazılarının təhlili əsasında "Çahargah" muğamının ifaçılıq variantlarının, musiqi dilinin xüsusiyyətlərinin – kompozisiya quruluşunun, məqam əsasının, melodik inkişaf formalarının araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi "Çahargah" muğamının ifaçılıq variantları əsasında tarixi-nəzəri tədqiqatla bağlıdır. Musiqişünaslıqda öz əksini tapmış fikirlərə müraciət edərək, "Çahargah" muğamının formalaşma prosesini üzə çıxarmağı, eyni zamanda, səs yazıları və not yazıları əsasında "Çahargah" muğamının vokal-instrumental və instrumental ifaçılıq variantlarının musiqi dilinin xüsusiyyətlərinin təhlilini aparmağı qarşımıza məqsəd qoymuşuq.

Bundan irəli gələrək, dissertasiyada aşağıdakı vəzifələr həyata keçirilmişdir:

– tarixi tədqiqatlarda, Orta əsr mənbələrində, muğam cədvəllərində və tədris proqramlarında öz əksini tapmış muğam tərkiblərinin araşdırılması sayəsində "Çahargah" muğamının tarixi inkişaf yolunun öyrənilməsi;

– "Çahargah" muğamının ifaçılıq variantlarının səsyazılarında və not yazılarında araşdırılması və onların özünəməxsus cəhətlərinin üzə çıxarılması;

– "Çahargah" muğamının quruluş xüsusiyyətlərinin araşdırılması;

– "Çahargah" muğamının məqam əsasının tədqiqi;

– "Çahargah" muğamında melodik inkişaf formalarının üzə çıxarılması;

– “Çahargah” muğamının variantlarına xas olan ümumi və fərqli cəhətlərin sistemləşdirilməsi.

**Tədqiqatın metodları.** Tədqiqatda tarixi, nəzəri və müqayisəli təhlil kimi metodlar əsas götürülmüşdür. Musiqişünaslığın ümumi nəzəri prinsipləri, Azərbaycan və xarici ölkə musiqişünaslarının tədqiqatlarında işlənmiş elmi nəzəri konsepsiyalar dissertasiyanın metodoloji bazasını təşkil edir.

Dissertasiyada “Çahargah” muğamının variantlarının nəzəri təhlili məqam əsasının, melodik xüsusiyyətlərin və kompozisiya quruluşunun araşdırılması istiqamətində aparılmışdır. Bu baxımdan, Ü.Hacıbəylinin, M.İsmayılovun, R.Zöhrabovun əsərləri muğamların nəzəri əsaslarının tədqiqində qiymətli metodoloji mənbə kimi qeyd olunmalıdır. Azərbaycan musiqişünaslarından Ə.Bədəlbəylinin, E.Babayevin, Z.Səfərovanın, S.Bağırovanın, R.Məmmədovanın, C.Həsənovanın və başqalarının elmi əsərlərində irəli sürülən müddəalar tədqiqatda qarşıya qoyulan problemin həlli baxımından mühüm əhəmiyyətə malikdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Azərbaycan musiqi irsində “Çahargah” muğamının yeri və tarixi inkişaf yolunun araşdırılması;
- “Çahargah” muğamının səs yazıları irsi və notlaşdırılması məsələləri;
- “Çahargah” muğamının nəzəri tədqiqi və musiqi yaradıcılığında tətbiqi məsələləri;
- “Çahargah” muğam dəstgahının ifaçılıq variantlarının əsas xüsusiyyətləri;
- “Çahargah” muğam dəstgahında təsnif və rənglərin variantlığı;
- “Çahargah” muğamının ifaçılıq variantlarının melodik xüsusiyyətləri;
- “Çahargah” muğamının quruluşunda variantlıq məsələlərinin üzə çıxarılması.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya Azərbaycan musiqişünaslığında “Çahargah” muğamının tarixinin, inkişaf yolunun, ifaçılıq variantlarının araşdırılmasına həsr olunmuş ilk xüsusi tədqiqatdır.

Dissertasiyada musiqi elminin əsas məsələlərindən biri kimi irəli sürülən muğam sənətinin tədqiqi, xüsusilə bir muğamın – "Çahargah" muğamının ayrılıqda öyrənilməsi nəticəsində onun tarixi inkişaf yolunu və musiqi məzmununun təkamülü izlənilmiş, Azərbaycan musiqisində tutduğu yeri səciyyələndirilmişdir.

Dissertasiyada "Çahargah" muğamının ümumi xarakteristikası verilmiş, obrazlı-poetik səciyyəsi açıqlanmış, muğamının nəzəri təhlili əsasında tonallıq planı, kompozisiya quruluşu, muğam dramaturgiyasının inkişafı, melodik xüsusiyyətləri səciyyələndirilmişdir.

Azərbaycan musiqişünaslığında "Çahargah" muğamının vokal-instrumental və instrumental ifaçılıq variantlarının səs yazıları və not yazıları əsasında araşdırılması ilk dəfə olaraq bu dissertasiyada həyata keçirilmiş, onların müqayisəli təhlili aparılmış, ifaçılıq variantlarının rəngarəngliyi üzə çıxarılmışdır. İfaçılıq variantlarının bir sıra ümumi və fərqli cəhətləri göstərilmişdir.

"Çahargah" muğamının vokal-instrumental ifaçılıq variantlarının səs və not yazıları əsasında araşdırılması nəticəsində üzə çıxarılmışdır ki, xanəndələr instrumental ansamblın müşayiətilə ənənəvi qaydalara əsaslanaraq, öz ifaçılıq imkanlarına, yaradıcılıq təxəyyülünə uyğun olaraq, muğamı müxtəlif şəkildə ifa etmişlər.

Bütün hallarda muğamın mövzularının melodik ifadəsi, inkişaf xüsusiyyətləri sabit təkrarlanan cəhətlər kimi göstərilmiş, muğam şöbələrinin əsasını təşkil edən mövzular ənənəvi olaraq, bütün xanəndələrin ifaçılıq variantlarında saxlanılaraq, muğamın musiqi məzmununun əsasını təşkil etdiyi qeyd olunmuşdur.

Eyni zamanda, ifaçılıq variantlarında mövzunun inkişaf etdirilməsində müxtəliflik üzə çıxarılmış, xanəndələrin ifaçılıq tərzi ilə bağlı müxtəliflik, muğamın tərkib hissələrinin, eləcə də müəyyən şöbə və guşələrin həcminin dəyişməsi variant əmələ gətirən cəhətlər kimi qeyd olunmuşdur. İfaçılıq variantlarında özünü göstərən müxtəlif qəzəllərdən istifadə, muğamın ənənəvi ifaçılıq üsullarından biri olaraq muğam şöbələrinin başlanğıcında və sonluğunda əlavə heca və sözlərin tətbiqi melodik improvizənin variantlığına yol açan mühüm xüsusiyyət kimi açıqlanmışdır.

“Çahargah” muğamının ifaçılıq variantlarının müqayisəli öyrənilməsi nəticəsində hər bir ifaçının muğamı öz yozumunda təqdim etməklə özünəməxsus kompozisiya yaratması üzə çıxarılmışdır.

Vokal-instrumental və instrumental ifaçılıq variantlarının müqayisəli təhlili nəticəsində göstərilmişdir ki, “Çahargah” muğamının dəstgah şəklində geniş ifası musiqi məzmununun tam açılmasına yönəldilir, bütün şöbə və guşələr ardıcıllıqla, kompozisiya quruluşundakı yerinə görə, məqam-tonallıq planına əsaslanır. “Çahargah” muğamının kompozisiya quruluşu melodik inkişaf xüsusiyyətləri və məqam-tonallıq planı ilə əlaqədar olaraq, üç mərhələdə xarakterizə olunmuşdur.

Dəstgah forması bütün ifaçılıq variantlarında əsas şöbələrin ardıcıllaşmasından ibarət silsilə kimi özünü göstərir. “Çahargah” muğamının şöbələri arasında yaranan variantlığın dəstgahın kompozisiya quruluşunda mühüm əhəmiyyətə malik olduğu üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin materiallarından respublikanın ali musiqi təhsili ocaqlarının musiqi fakultələrində “Azərbaycan xalq musiqisinin əsasları”, “Azərbaycan xalq musiqi yaradıcılığı”, “Muğam sənəti” kimi fənlərinin tədrisində bir mənbə kimi istifadə oluna bilər. Dissertasiyanın nəticələri musiqişünaslığın müxtəlif sahələrində, muğam sənəti ilə bağlı elmi tədqiqatlarda tətbiq oluna bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı məruzələrində, AAK tərəfindən tövsiyə edilmiş nəşrlərdə - yerli və xarici elmi məcmuələrdəki məqalələrində öz əksini tapmışdır.

Bunlardan: Humanities science current issues. İnteruniversity collection of Drohobych İvan Franko State pedagogical University young scientists research papers. Drohobych 2020, İssue 30. Volume 1; “Musiqi dünyası” Beynəlxalq, elmi-pedaqoji, tənqidi- publisistik və mədəni-maarif jurnalında, “Konservatoriya” elmi nəşrində çap olunmuş məqalələri göstərmək olar.

Həmçinin, beynəlxalq və respublika elmi konfransların materiallarını: “Евразийская Лингвокультурная Парадигма и Процессы Глобализации: трансфер культур, русско-кавказские

связи”. Материалы III Международной научно-практической конференции 25-26 мая 2017 года, Пятигорск; Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və Gənc Tədiqatçıların XXII Respublika Elmi Konfransının Materialları. II cild. Bakı, 22-23 noyabr 2018; “Türksoylu Xalqların Musiqi Mədəniyyətinin Tədqiqi Problemləri”. XIV Beynəlxalq elmi-praktik konfransın materialları. ADMİU. Bakı 26.02.2015. “Bəstəkar və zaman”. Respublika konfransı. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası. Aprel, 2021 - qeyd etməliyik.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, yeddi paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. “Giriş” 11 səhifə olmaqla 18678 işarədən, I fəsil 46 səhifə olmaqla 82255 işarədən, II fəsil 46 səhifə olmaqla 55719 işarədən, III fəsil 53 səhifə olmaqla 56865 işarədən, “Nəticə” 6 səhifə olmaqla 10553 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi “İstifadə edilmiş ədəbiyyat siyahısı” istisna olmaqla ümumilikdə 224070 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli “Azərbaycan musiqi irsində “Çahargah” muğamının tarixi-nəzəri tədqiqi məsələləri” adlanır.** Bu fəsil 3 paraqrafdan ibarətdir: 1.1.“Çahargah” muğamının tarixi inkişafı; 1.2.“Çahargah” muğamının səs yazıları irsi və notlaşdırılması məsələləri; 1.3. “Çahargah” muğamının nəzəri tədqiqi və musiqi yaradıcılığında tətbiqi məsələləri.

**I fəslin birinci paraqrafında - "Çahargah" muğamının tarixi inkişafı" məsələləri öyrənilmişdir.**

Azərbaycanın ənənəvi musiqisində "Çahargah" muğamının müstəqil muğam kimi formalaşması XIV-XV əsrlərdən başlamışdır. "Çahargah" muğam adına həmin dövrdə Əbdülqadir Marağalının (1353-1435) tərtib etdiyi 24 şöbə sırasında rast gəlinir. Eyni zamanda, müasir dövrə aid "Çahargah" muğamına daxil olunan bir neçə şöbələrin adlarına da həmin siyahıda rast gəlirik. Məsələn, "Hisar", "Bəstə-Nigar", "Üzzal" şöbələri bu qəbildəndir.

XIX əsrin II yarısından XX əsrin əvvəllərinə kimi muğam ifaçılığı təcrübəsini əks etdirən cədvəllərdə "Çahargah" muğamın dəstgah kimi formalaşmasını, tərkibinin təkmilləşməsini izləyirik. Dövrün görkəmli muğam biliciləri olmuş Mir Möhsün Nəvvab Qarabağinin, Mirzə Fərəc Rzayevin, Məşədi Məlik Mansurovun, Məşədi Süleyman Mansurovun cədvəllərində "Çahargah" muğam dəstgahı kimi müəyyən fərqliliklərlə öz əksini tapmışdır ki, bu da muğam ifaçılıq təcrübəsinin inkişafını göstərir.

XIX əsrin II yarısında Mir Möhsün Nəvvabın cədvəllərində "Çahargah" muğamı artıq bir sıra şöbələrdən ibarət dəstgah şəklində göstərilmişdir: "Çahargah", "Segah", "Zabul", "Yədi-hasar", "Müxalif", "Məğlub", "Mənsuriyyə", "Zəmin-xara", "Mavərəünnəhr", "Hicaz", "Şahnaz", "Azərbaycan", "Əşiran", "Zəngi-şötör", "Kərkuki".

Təxminən eyni dövrə aid tarzən Mirzə Fərəcin tərtib etdiyi muğam cədvəllərində isə "Çahargah" muğamının tərkibi bu şəkildədir: "Çahargah", "Bəstə-Nigar", "Firuz", "Manəndi-Müxalif", "Müalif", "Cövhəri", "Müxalif" (yaxud "Kərimabadı"), "Hasar", "Gülriz", "Zirkeş", "Rubənd", "Qürrə", "Müxalif", "Məğlub", "Mənsuriyyə", "Üzzal", "Çahargah". Muğamın bu tərkibi əsasən "Çahargah"a uyğun şöbələrdən ibarət olub, daha yığcam və məntiqi quruluşa malikdir.

XX əsrdə "Çahargah" muğamının tərkibinin daha sistemli şəkil aldığını müşahidə edirik. 1925-ci ildə Ü.Hacıbəylinin rəhbərliyi altında Türk Musiqi Texnikumu üçün qəbul olunmuş ilk muğam proqramında "Çahargah" muğamının tərkibi bu şəkildədir: "Mayeyi-Çahargah", "Bali-kəbutər", "Bəstə-Nigar", "Manəndi-Müxalif", "Hasar", "Qərrə", "Müxalif", "Məğlub", "Mənsuriyyə", "Üzzal",

“Müxalif”, “Çahargah”. Demək olar ki, muğamın bu tərkibi kiçik ixtisarlarla müasir dövrdə də muğam proqramlarının əsasını təşkil etmiş, eyni zamanda, ifaçılıq təcrübəsində öz əksini tapmışdır.

Son illərdə Ali və orta ixtisas musiqi məktəblərində həm solo oxuma – xanəndəlik, həm də instrumental ifaçılıq üzrə tədris proqramlarında “Çahargah” muğam dəstgahı bu şəkildə verilir: “Bərdaşt”, “Mayəyi-Çahargah”, “Bəstə-Nigar”, “Hasar”, “Müalif”, “Qərrə”, “Müxalif”, “Mənsuriyyə”, “Üzzal”, “Çahargaha əyağ”.

Müasir dövrdə Yaxın Şərq xalqlarının şifahi ənənəli musiqisində “Çahargah” özünəməxsus yer tutan və geniş yayılmış muğamlardan biridir. Xüsusilə Azərbaycanın muğam irsində “Çahargah” 7 əsas muğam dəstgahından biri olub, öz dramatik xarakteri ilə seçilir. Bu muğamın həm vokal-instrumental, həm də instrumental ifa variantları geniş yayılmışdır [2; 3; 10].

**I fəslin ikinci paraqrafı - “Çahargah” muğamının səs yazıları irsi və notlaşdırılması məsələləri” ilə bağlıdır.**

Azərbaycanın səs yazıları irsində “Çahargah” muğamının müxtəlif ifaçılıq variantları qalmışdır: həm “Çahargah” dəstgahının vokal-instrumental və instrumental şəkildə, həm ayrı-ayrı şöbələrin, “Mənsuriyyə” zərbi-muğamının, təsnif və rənglərin səs yazıları ifaçılıq variantlarının zənginliyini nümayiş etdirir. “Çahargah” muğamının ifaçılarından Seyid Şuşinski, Əbülfət Əliyev, Yaqub Məmmədov, İslam Rzayev, Hacıbaba Hüseynov, Baba Mahmudoğlu, Zeynəb Xanlarova, Alim Qasımov və digər xanəndələrin ifaçılıq təfsiri musiqi irsinə əlamətdar hadisə kimi daxil olmuşdur. İnstrumental ifaçılıqda tarzənlərdən Qurban Primovun, Bəhram Mansurovun, Əhməd Bakıxanovun, Hacı Məmmədovun, Sərvər İbrahimovun, Ramiz Quliyevin, Möhlət Müslümovun, Ağasəlim Abdullayevin, Firuz Əliyevin, kamança ifaçılarından Habil Əliyevin, Elman Bədəlovun, Ədalət Vəzirovun, Fəxrəddin Dadaşovun, Şəfiqə Eyvazovanın, Mirnazim Əsədullayevin və başqalarının səsyazılarında “Çahargah” muğamının maraqlı təfsirləri həkk olunmuşdur.

Qarabağ xanəndələrinin 1903-1912-ci illərə aid səsyazılarında Cabbar Qaryağdıoğlunun ifasında “Manəndi-Müxalif” muğam şöbəsi və təsnifi, “Mənsuriyyə” zərbi-muğamı; Məşədi Məhəmməd Fərzəliyevin ifasında “Hisar” muğam şöbəsi və təsnifi verilmişdir.

Bundan əlavə, Şəkili Ələsgərin qrammofon vallarında "Çahargah", "Bəstə-Nigar" təsniflərinə, "Mənsuriyyə" zərbi-muğamına, Seyid Mirbabayevin ifasında "Müxalif" muğam şöbəsinin və təsnifinin oxunmasına rast gəlirik. Bu səsyazılarının səslənmə müddəti çox kiçik olduğuna görə (2-3 dəqiqə) muğamın yalnız bir şöbəsini və ona aid təsnifi əhatə edir.

1950-ci və sonrakı illərə aid səsyazılarında muğamın daha iri həcmli səsyazılarını izləyə bilərik. Bunları ardıcıllıqla qeyd edək. "Çahargah" muğamının ən mahir ifaçılarından hesab olunan xanəndə Seyid Şuşinskinin ifasından 1964-cü ilə aid səsyazısı 16.54 dəqiqə səslənir və muğamın əsas tərkib hissələrini nümayiş etdirir. Əbülfət Əliyevin ifasında "Çahargah" muğamının 1958-ci ilə aid səsyazısı 18.13 dəqiqədən ibarətdir, muğamın daha bir səsyazısı 1962-ci ildə meydana gəlmişdir (15.07 dəqiqə həcmində). Səsyazılarının xronometrajı müxtəlif olsa da burada muğamın əsas ənənəvi şöbələrinin oxunduğunu, ifada müxtəlif təsniflərdən istifadə olunduğunu qeyd etməliyik. İslam Rzayevin ifasında "Çahargah" muğamının bir neçə diqqətəlayiq variantları vardır ki, onlar özünəməxsus xüsusiyyətlərə malikdir və müqayisəli təhlillər üçün çox maraqlı tədqiqat obyekti ola bilər.

"Çahargah" muğam dəstgahının diqqətəlayiq səsyazılarından Hacıbaba Hüseynovun (1959,19.22 dəq.), İldırım Həsənovun (1959, 16.15 dəq.), Zeynəb Xanlarovanın (1960, 18.38 dəq.), Eynulla Cəbrayılovun (1963, 19.56 dəq.), Süleyman Abdullayevin (1965, 23.43 dəq.) Nəriman Əliyevin (1969, 15.50 dəq.), Sabir Mirzəyevin (1967, 20.44 dəq.), Qədir Rüstəmovun (1971, 33.05), Sabir Novruzovun (1971, 25.11 dəq.), Razi Şükürovun (1971, 23.19), Baba Mahmudoğlunun (1988, 30.55 dəq.), Canəli Əkbərovun (1999, 20.31 dəq.), Vəli Məmmədovun (2002, 19.04 dəq.) ifasının müxtəlif təfsirlərini qeyd etmək olar.

"Çahargah" muğamının Zahid Quliyevin ifasından (1989, 32.44) və Qoçaq Əsgərovun ifasından (2007, 36.29) səsyazıları araşdırdığımız nümunələr sırasında xronometrajına görə ən geniş həcmlidir.

Eyni zamanda, nəzərdən keçirdiyimiz səsyazıları sırasında, Seyid Şuşinskinin, Yaqub Məmmədovun, Qədir Rüstəmovun, Təyyar

Bayramovun ifasında “Mənsuriyyə” zərbi-muğamı mükəmməl ifalardandır. Bülbülün, Əbülfət Əliyevin, İslam Rzayevin, Teymur Mustafayevin, Mürşüd Məmmədovun, Nisə Qasımovanın və başqa xanəndələrin oxuduğu “Çahargah təsnifləri” rəngarəng musiqi məzmunu ilə seçilir. Səsyazılarında müxtəlif nəsillərə mənsub xanəndələrin ifaçılıq təfsirlərini izləmək imkanı əldə etmiş oluruq.

Azərbaycan musiqi ədəbiyyatında muğamların not yazıları müəyyən dövrlərdə həyata keçirilmişdir. “Çahargah” muğamının beş not yazısının nəşrini qeyd etməliyik. Onlardan ikisi bəstəkar və musiqişünas Nəriman Məmmədov tərəfindən notlaşdırılmışdır.

N.Məmmədov 1962-ci ildə Əhməd Bakıxanovun ifasından “Çahargah” muğamını instrumental şəkildə nota yazmışdır. Burada bəstəkar muğam şöbələrini instrumental improvizasiya kimi, müşayiətdə dayaq pillələr saxlanılmaqla əks etdirmişdir.

1970-ci ildə Moskvada çap olunmuş “Çahargah” muğam dəstgahı N.Məmmədov tərəfindən vokal-instrumental şəkildə notlaşdırılmışdır. Bu not yazısı xanəndə Yaqub Məmmədovun və tarzən Həbib Bayramovun rəhbərliyi ilə instrumental ansamblın ifasından notlaşdırılmışdır. Burada muğam şöbələri səs və fortepianonun müşayiətinə uyğunlaşdırılmışdır. Bəstəkar tərəfindən təsnif və rənglər müvafiq olaraq, fortepiano üçün, həmçinin, səs və müşayiət üçün tərtib olunmuşdur.

Muğamın digər not yazıları birsəslidir. “Çahargah” muğamının üçüncü not yazısı kamança ifaçısı və pedaqoq Arif Əsədullayevə məxsusdur (Bakı, 2009). Bu not yazısı tarzən Elxan Müzəffərovun ifaçılıq təfsirini təcəssüm etdirir, lakin burada kamança alətinin ifaçılıq xüsusiyyətləri ilə bağlı əlavələr də öz əksini tapmışdır. “Çahargah” muğamının dördüncü not yazısı tarzən və pedaqoq Əkrəm Məmmədlinin tərəfindən həyata keçirilmişdir (Bakı, 2010). Həmin variant görkəmli tarzən-pedaqoq Kamil Əhmədovun ifaçılıq ənənəsinə uyğundur. Beşinci not yazısı musiqişünas Fuad Əzimliyə məxsusdur (2008). Bu not yazılarını fərqləndirən cəhətlər də vardır: muğamın not yazısında mayə ucalığı yarım ton fərqlənir, eyni zamanda, şöbə və guşələrin məndəricəsində ümumi ənənəvi şöbələrlə yanaşı, fərqlər də özünü göstərir.

“Çahargah” muğamına aid rənglər və təsniflər də çap olunmuşdur. Səid Rüstəmovun iki dəftərdən ibarət “Azərbaycan xalq rəngləri” (Bakı, 1954-1956), Əhməd Bakıxanovun “Azərbaycan xalq rəngləri” (Bakı, 1964), “Azərbaycan ritmik muğamları” (Bakı, 1968) məcmuələrində “Çahargah” muğamının bütün şöbələrinə aid rənglərə, həmçinin, “Mənsuriyyə” zərbi-muğamının rənglərinə rast gəlirik. Ramiz Zöhrabovun “Azərbaycan təsnifləri” (Moskva, 1983) məcmuəsinə daxil olan “Çahargah”, “Bəstə-Nigar”, “Müxalif” təsnifləri müxtəlif ifaçılardan nota yazılmışdır. Həmçinin, R.Zöhrabovun “Zərbi-muğamlar” (Bakı, 2004) məcmuəsində “Mənsuriyyə” zərbi-muğamının partitura şəklində not yazısı öz əksini tapmışdır. Göründüyü kimi, “Çahargah” muğamının rəng və təsniflərin bir neçə variantda not yazıları mövcuddur. Bu not yazıları müxtəlif bəstəkarlar və musiqişünaslar tərəfindən müxtəlif ifalardan həyata keçirilmişdir [1].

**I fəslin üçüncü paraqrafında - “Çahargah” muğamının nəzəri tədqiqi və musiqi yaradıcılığında tətbiqi məsələləri” araşdırılır.** Musiqişünaslıqda “Çahargah” muğamının tarixi inkişaf yolunun öyrənilməsi ilə yanaşı, bu muğamın musiqi dilinin nəzəri əsaslarının tədqiqi mühüm məsələlərdəndir.

Ü.Hacıbəylinin 1919-cu ilə aid “Azərbaycan türklərinin musiqisi haqqında” məqaləsində “Çahargah” muğamının xarakteri, quruluşu və musiqi irsində yeri ilə əlaqədar qiymətli fikirlər öz əksini tapmışdır. Üzeyir Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları” elmi fundamental əsərində çahargah məqamının nəzəri əsaslarını üzə çıxarmışdır. Ü.Hacıbəylinin məqam nəzəriyyəsində çahargah məqamının iki növü (əsas və əlavə məqam kimi) göstərilmişdir. Bunlar bir-birindən II və IX pillələrin alterasiya olunması ilə fərqlənir. Məhz bu pillələr “Çahargah” muğamında “Müxalif” şöbəsinin, eləcə də “Bərdaşt” və “Mənsuriyyə” şöbələrinin fərqləndirici intonasiya əsasını təşkil edir. Buradan belə nəticə çıxarmaq olar ki, “Çahargah” muğamında Ü.Hacıbəylinin göstərdiyi hər iki çahargah məqam növündən istifadə olunur.

Məmmədsaleh İsmayılov “Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodiki oçerklər” əsərində məqamların nəzəri əsasları haqqında bilgiləri genişləndirmiş,

bilavasitə məqamların istinad pillələri, səssırasında pillələrin dəyişikliyə uğramasını, istinad dayaq pillələrinin muğamın tərkib hissələrində tətbiqini və s. məsələləri üzə çıxarmış, muğamların nəzəri təhlili yollarını göstərmişdir. M.İsmayılovun "Çahargah məqamının strukturu haqqında" adlanan məqaləsində çahargah məqamının quruluşu ilə bağlı müəllifin önəmli açıqlamaları (bilavasitə, çahargahda oktava konsekventliyi ilə bağlı) öz əksini tapmışdır ki, bu da Ü.Hacıbəylinin çahargah məqamı ilə bağlı göstərdiyi kvarta-kvinta quruluşunun yeni şərhidir.

Ramiz Zöhrabovun elmi yaradıcılığında "Çahargah" muğamının tarixi və nəzəri araşdırılmasını qeyd etməliyik. Bu baxımdan müəllifin "Çahargah" muğam dəstgahının nəzəri əsasları" monoqrafiyası dəstgahın məqam əsasının, melodikasının, musiqi tematizminin və melodiyanın formalarının, çoxsəslilik, ritm, musiqi forması məsələlərinin tədqiqinə həsr edilmiş və qiymətli elmi nəticələr əldə olunmuşdur. R.Zöhrabov öz tədqiqatlarında N.Məmmədovun vokal-instrumental şəkildə nota yazdığı "Çahargah" muğamına əsaslanmışdır ki, bu da muğamın not yazılarının elmi-təcrübi əhəmiyyətini bir daha təsdiq edir.

Beləliklə, musiqişünaslıq tədqiqatlarından göründüyü kimi, çahargah məqamının nəzəri əsasları hərtərəfli araşdırılmış, məqamın muğam dəstgahı, şifahi ənənəli musiqi nümunələri və bəstəkar əsərlərində tətbiqi məsələləri tədqiqat obyektinə çevrilmişdir [5; 6; 8].

**Dissertasiyanın II fəsli "Çahargah" muğam dəstgahının vokal-instrumental ifaçılıq variantları" adlanır.** Bu fəsil 2 paraqrafdan ibarətdir: 2.1."Çahargah" muğam dəstgahının ifaçılıq variantlarının əsas xüsusiyyətləri; 2.2. "Çahargah" muğam dəstgahında təsnif və rənglərin variantlığı.

**II fəslin birinci paraqrafı - "Çahargah" muğam dəstgahının ifaçılıq variantlarının əsas xüsusiyyətləri"nə həsr olunmuşdur.**

Muğam sənətinin əsas xüsusiyyəti kimi, hər bir xanəndənin ifa zamanı muğam dəstgahlarının yeni variantlarını yaratması özünü çox qabarıq büruzə verir. Hətta bir sənətkar eyni muğam dəstgahını və ya onun şöbəsini ifa edərkən onu müəyyən qədər əlavələr və ixtisarla dəyişdirir, yəni bu prosesdə o, yaradıcı sənətkar kimi iştirak edir. Bütün bunlar xanəndələrin səsyazılarında da üzə çıxır.

“Çahargah” muğam dəstgahının XX əsrin II yarısına aid vokal-instrumental ifaçılıq variantlarının təhlilinə əsasən deyə bilərik ki, muğamın ifası əsasən iki şəkildə özünü göstərir: birincisi, muğam dəstgahının tam oxunması (“Mayə-Çahargah”dan başlayıb, “Mənsuriyyə” ilə tamamlanır); ikincisi, muğam dəstgahının ixtisarla oxunması (“Mayə-Çahargah”dan başlayıb, “Müxalif” şöbəsi ilə bitir). Hər bir halda dəstgah daxilində ifaçılıq variantları mövcuddur. Burada Dəraməd, rəng və təsniflərin müxtəlifliyi, Bərdaştın ifaçılıq tərzi (instrumental və ya vokal giriş), “Mənsuriyyə”nin zərbli muğam kimi oxunması və ya bu pillədə gəzişmə və s. cəhətlər də ifaçılıq variantlarının rəngarəngliyi kimi qeyd oluna bilər.

İfaçılıq təcrübəsində “Çahargah” muğamının geniş variantlarını, muğamın bütün şöbələrini əhatə edən təfsirini qeyd etmək lazımdır. Bu baxımdan biz Yaqub Məmmədovun və Zeynəb Xanlarovanın ifaçılıq variantlarına müraciət etmişik. Y.Məmmədovun ifasında “Çahargah” dəstgahı N.Məmmədov tərəfindən nota alınmışdır (1970). Z.Xanlarovanın ifasında “Çahargah” muğamını səsyazısından bizim tərəfimizdən notlaşdırılaraq təhlil edilmişdir. Y.Məmmədovun və Z.Xanlarovanın ifaçılıq təfsirlərini müqayisə edərək, deyə bilərik ki, hər iki xanəndə “Çahargah” dəstgahını tam şəkildə ifa etsə də, onların oxuduğu dəstgah variantlarında müəyyən fərqlər özünü göstərir.

İlk növbədə, bu, muğam dəstgahının tərkibi ilə bağlıdır. Belə ki, Yaqub Məmmədovun variantını əks etdirən not yazısında ənənəvi “Bərdaşt” və “Mayə” şöbələri “Bali-kəbutər” adı ilə bir bölmədə instrumental və vokal-instrumental şöbələrdən ibarət olaraq verilmişdir. Zeynəb Xanlarovanın ifaçılıq variantında “Bərdaşt” şöbəsi buraxılmışdır və muğamın ifası (“Dəramədˮdən sonra) birbaşa “Mayə” şöbəsindən başlanır. Muğamın tərkibindəki şöbələrdən “Hasar”ın oxunmasında da variantlıq özünü göstərir. Belə ki, Yaqub Məmmədov “Hasar” şöbəsinin daxilində daha yüksək pillələrə istinad edərək, “Müalif” və “Qərrə” guşələrini oxuyur ki, bunlar da inkişafın yeni mərhələsi kimi qəbul olunur, bundan sonra rəng çalınaraq həmin şöbəni yekunlaşdırır və “Müxalif” səsləndirilir. Bu cəhət Zeynəb Xanlarovanın ifaçılıq variantında da öz əksini tapmışdır, lakin burada “Hasar” iki cümlə oxunduqdan sonra rəng çalınır və bunun ardınca “Müalif” - instrumental, “Qərrə” vokal-

instrumental guşələri əhatə olunur, bununla da "Müxalif"ə keçid verilir. Y.Məmmədov "Müxalif"dən sonra "Gülüstanda sənə bənzər tay olmaz" sözlərilə başlanan təsnif oxuyur ki, bu da "Çahargah"ın ifaçılıq variantlarında geniş tətbiq olunur. Z.Xanlarova "Müxalif"dən sonra birbaşa "Zərbi-Mənsuriyyə" şöbəsinə keçid edir ki, bu variant daha az rast gəlinir.

İkinci cəhət, ifaçılıq variantlarında müxtəlif qəzəllərdən istifadə olunması ilə bağlıdır ki, bu da xanəndələrin ifasında melodik variantlığa səbəb olur. Yaqub Məmmədovun variantında belə bir cəhət də özünü göstərir ki, xanəndə bir qəzəlin mətnindən ardıcıl iki şöbədə istifadə etmişdir, Zeynəb Xanlarova isə hər şöbədə bir qəzəlin mətnini tam oxumuşdur. Bu da şöbənin musiqi materialının həcminə təsir edərək, muğam improvizasiyasının genişlənməsinə səbəb olur. Bu cəhət ümumiyyətlə ifaçılıq variantlarında çox rast gəlinir.

Üçüncü cəhət xanəndələrin ifasında muğam şöbələrinin başlanğıcında və sonluğunda əlavə heca və sözlərdən istifadə edilərək, melodik improvizənin nümayişi ilə bağlıdır. Bu cəhət muğamın ənənəvi ifaçılıq üsullarından biridir. Demək olar ki, bütün ifaçılıq variantlarında muğamın bütün şöbələrinin əvvəlində və sonluğunda əlavə sözlər, nidalar – "ay aman", "yar aman, aman", "ey", "can", "a" və s. istifadə olunsa da, hər xanəndə melodik improvizəni fərqli ştrixlərlə inkişaf etdirir.

İfaçılıq variantlarında sabit cəhətlərdən biri muğam şöbələrinin əsasını təşkil edən mövzulardır. Muğam mövzuları ənənəvi olaraq, bütün xanəndələrin ifaçılıq variantlarda saxlanılaraq, muğamın musiqi məzmununun əsasını təşkil edir. Bununla belə ifaçılıq variantlarında mövzunun inkişaf etdirilməsində müxtəliflik özünü göstərir [7].

**II fəslin ikinci paraqrafı - "Çahargah" muğam dəstgahında təsnif və rənglərin variantlığı" ilə bağlıdır.**

"Çahargah" muğam dəstgahının səsyazıları əsasında vokal-instrumental variantlarının araşdırılması rəng və təsniflərin müxtəlifliyini üzə çıxarır. İfaçılıq təcrübəsində muğamın variantlarında eyni rənglərin təkrarlanmasına daha çox rast gəlirik, lakin bir sıra ifalarda müxtəlif rənglərin səsləndirilməsi muğam dəstgahının yeni variantının meydana gəlməsinə yol açır.

“Çahargah” muğamında təsniflərin oxunmasına daha az hallarda rast gəlirik. “Müxalif” şöbəsində “Gülüstanda sənə bənzər gül olmaz” təsnifinin oxunması geniş yayılsa da, “Mayə-Çahargah”, “Bəstə-nigar”, “Hasar” təsnifləri az ifa olunur. Xanəndələr adı çəkilən şöbələrin oxunmasından sonra, öz qüvvəsini zildə “Müxalif” və “Mənsuriyyə” şöbələrinin ifası üçün səfərbər edirlər. Yalnız bir neçə ifaçılıq variantı bu baxımdan istisnalıq təşkil edir. Bununla belə, “Çahargah” təsniflərinin nota alındığı nəşrlərdə, məsələn, R.Zöhrabovun, N.Məmmədovun not yazılarında “Mayə-Çahargah”, “Bəstə-nigar”, “Hasar” təsnifləri üstünlük təşkil edirsə, “Müxalif” şöbəsinə aid cəmi bir təsnif - “Gülüstanda sənə bənzər gül olmaz” təsnifi öz əksini tapmışdır.

“Çahargah” muğamının ifaçılıq variantlarında “Bərdaşt” şöbəsinin xanəndə tərəfindən oxunması özünü göstərir. Bəzi variantlarda isə “Bərdaşt” quruluşlu təsnifin oxunmasını qeyd edə bilərik (İslam Rzayev, Alim Qasımov). Bərdaşt quruluşlu təsniflərə nümunə olaraq, “Dağlar başı duman olar” (xalq sözlərinə) “Çahargah” təsnifini göstərə bilərik. Bu təsnif İslam Rzayevin ifasından R.Zöhrabov tərəfindən nota salınmışdır.

“Çahargah” dəstgahında ifa olunan muğam şöbələrinə aid təsniflər muğam dəstgahının müxtəlif inkişaf mərhələlərində oxunduğu üçün onları mayəyə aid təsniflər və kulminasiyaya aid təsniflər kimi səciyyələndirmək olar. Bunlardan - “Mayə-Çahargah”, “Bəstə-nigar” təsniflərini mayə mərhələsinə, “Hasar”, “Müxalif” təsniflərini isə kulminasiya mərhələsinə aid təsniflər kimi səciyyələndirmək olar.

“Çahargah” dəstgahında “Müxalif” şöbəsi təsniflə yekunlaşdırılır. Muğam ifaçılığında “Gülüstanda sənə bənzər gül olmaz” sözlərilə başlanan təsnif geniş yayılmışdır. Demək olar ki, bütün xanəndələr “Müxalif” şöbəsindən sonra bu təsnifi ifa edirlər. Təsnifin iki mənbədə not yazısı vardır: N.Məmmədov həmin təsnifi Yaqub Məmmədovun ifasından və R.Zöhrabov isə Nəriman Əliyevin ifasından notlaşdırmışdır.

Xanəndəlik sənətində “Çahargah” muğamının ayrı-ayrı şöbələrinin müstəqil oxunması da qəbul olunmuşdur. Xanəndələr adətən, “Çahargah” təsnifi adı ilə “Mayə-Çahargah” şöbəsini və bu şöbəyə aid təsnifi ifa edirlər. “Bəstə-nigar”, “Hasar” və “Müxalif”

şöbələrinin də təsnifləri ilə birlikdə ayrılıqda oxunması xanəndə repertuarında yer almışdır.

"Çahargah" dəstgahındakı rəngləri yerinə görə xarakterizə etsək, "Çahargah dəramədi", "Mayə-çahargah", "Bəstə-nigar", "Hasar", "Müxalif", "Mənsuriyyə" rənglərinin muğamın müəyyən yerlərində - girişdə, şöbələr arasında və kulminasiyada səsləndiyini qeyd etməliyik. Muğam ifaçılığında hər şöbəyə aid bir neçə rəng nümunəsi istifadə olunur. Muğamın bir çox ifaçılıq variantlarında eyni rənglərin təkrarlandığını qeyd etməliyik. Bir cəhəti də qeyd edək ki, not yazılarında öz əksini tapmış rənglərlə ifaçılıq praktikasındakı rənglər arasında yerinə görə fərqlər özünü göstərir ki, bu da onların variantlığını əks etdirir [11].

**Dissertasiyaın III fəsli "Çahargah" muğamının instrumental variantlarının müqayisəli təhlili" adlanır.** Bu fəsil 2 paraqrafdan ibarətdir: 3.1."Çahargah" instrumental muğam variantlarının melodik xüsusiyyətləri; 3.2. "Çahargah" muğamının quruluşunda variantlıq məsələləri.

**III fəslin birinci paraqrafında - "Çahargah" instrumental muğam variantlarının melodik xüsusiyyətləri" araşdırılmışdır.**

Biz öz tədqiqatımızda "Çahargah" muğamının instrumental variantlarını mövcud not yazıları əsasında müqayisəli təhlilini aparmışıq. "Çahargah" muğamının Nəriman Məmmədov, Arif Əsədullayev, Əkrəm Məmmədli və Fuad Əzimli tərəfindən həyata keçirilmiş not yazılarının müqayisəsindən görünür ki, burada öz əksini tapan ifaçılıq variantlarında şöbələrin sayı və həcmi müxtəlifdir. Lakin bütün not yazılarında "Çahargah" muğamı üçün ənənəvi şöbələr təkrarlanır ki, bunlar da muğam kompozisiyasının əsasını təşkil edir. Bunlar: "Bərdaşt", "Mayeyi-Çahargah", "Bəstə-Nigar", "Hisar", "Müxalif", "Mənsuriyyə", "Üzzal", "Çahargaha ayaq" ("Məğlub") şöbələridir. Muğam dəstgahın ənənəvi şöbələrinin ardıcıllaşması bütün variantlarda saxlanılır.

"Çahargah" muğamının kompozisiya quruluşu melodik inkişaf xüsusiyyətləri və məqam-tonallıq planı ilə əlaqədardır. Burada üç mərhələ özünü göstərir:

– Birinci inkişaf mərhələsi: "Bərdaşt", "Mayeyi-Çahargah", "Bəstə-Nigar" şöbələrini və mayə pilləsinə əsaslanan guşələri özündə

cəmləşdirir. Bunu ümumilikdə mayənin təqdimatı, yəni ekspozisiya mərhələsi hesab etmək olar, burada “Çahargah” muğamının melodik özəyi öz əksini tapır. Eyni zamanda, məqam baxımından da bu şöbələrin melodiyasında istinad pillələri və kadensiya baxımından onları birləşdirən ümumi cəhətlər vardır. Bu mərhələdə əsas məqam-tonallıq “do” mayəli çahargaha əsaslanır.

– İkinci inkişaf mərhələsini: “Hasar”, “Müxalif” şöbələri təşkil edir. Bu şöbələr ardıcıl ifa olunaraq, məqam-tonallıq və melodik cəhətdən bir-birindən fərqlənir.

– Muğamın üçüncü inkişaf mərhələsi “Mənsuriyyə” və “Üzzal” şöbələrindən ibarətdir. Kulminasiyada Çahargah məqamına keçid və muğamın yeni səviyyədə məqam-intonasiya əsasına qayıdışı ilə xarakterizə olunur. Sonda melodiyanın zildən-bəmə enməsi vasitəsilə “Çahargah” muğamının mayəsi və əsas məqam-tonallığı – “do” çahargah təsdiq olunur [4].

**III fəslin ikinci paraqrafında “Çahargah” muğamının quruluşunda variantlıq məsələləri” öyrənilmişdir.**

“Çahargah” muğamının şöbələri arasında özünü göstərən variantlıq dəstgahın kompozisiya quruluşunda mühüm əhəmiyyətə malikdir. Muğam dəstgahında silsilə şəklində bir-birini əvəz edən muğam şöbələrində inkişaf xüsusiyyətləri diqqəti cəlb edir. Muğam şöbələrinin inkişafının yüksələn xətlə davam etdirilməsi muğamın əsas özək əhəmiyyətli musiqi düzümlərinin variantlı şəkildə işlənilməsinə əsaslanır. “Çahargah” muğamının mayə pilləsinə istinad edən və bu pillə ətrafında gəzişməyə əsaslanan muğamın əsas mövzusu və kadensiyası müxtəlif səviyyələrdə “Mayə” şöbəsindən kvinta və oktava münasibətində səsləndirilməklə, kompozisiya quruluşunun əsasına çevrilir. “Çahargah” muğamının əsas tematik özəyi sərbəst variasiyalılıq və məqam keçidləri əsasında geniş surətdə inkişaf etdirilir. Variantlı, sekvensiyalı, enən-yüksələn hərəkət formaları muğamın melodik quruluşunda mühüm rol oynayır. Muğam şöbələrinin sonunda verilən kadensiyalar – ayaqlar dəstgahın quruluşunda mühüm əhəmiyyətə malikdir. Müvafiq olaraq, kadensiyaların variantlığı özünü göstərir. Eyni zamanda, muğam şöbələrinin sonluğunda verilən mayə kadensiyasının əsas mövzu ilə

uyğunluğunu qeyd edə bilərik ki, bu da melodik inkişafın vəhdətinə yol açmaqla, muğamın quruluşunda tamlıq yaradır.

“Çahargah” muğam dəstgahının inkişaf mərhələlərində mayə pilləsi ətrafında müxtəlif səviyyələrdə qurulan şöbələrlə yanaşı, yeni mövzuya əsaslanan və muğamın quruluşunda yönəlmə əmələ gətirən şöbələr də vardır. Bunlar mayə mövzusuna əsaslanan “Mayə-Çahargah” şöbəsindən sonra “Bəstə-Nigar”, kvinta münasibətində çahargah tonallığında qurulan “Hasar” şöbəsindən sonra “Müxalif”, oktava münasibətində mayəyə əsaslanan “Mənsuriyyə” şöbəsindən sonra “Üzzal” şöbələridir. Bu şöbələr muğam dəstgahın daxilindəki kiçik silsilələrdə özünəməxsus inkişaf – yüksəliş əmələ gətirərək, yeni intonasiya xüsusiyyətlərini daxil etməklə, həm də özündən sonrakı mərhələyə hazırlıq rolu oynayır. Adı çəkilən bu şöbələrin də özlüyündə variantlı melodik gedişlərə malik olduğunu qeyd etməliyik. Mövzuların müxtəlifliyinə baxmayaraq, oktava münasibətində eyniadlı dayaq pillələrinə əsaslanan bu şöbələr dəstgahın kompozisiyasında inkişaf mərhələləri arasında əlaqə yaradılmasına xidmət edir. Beləliklə, muğamın şöbələri arasında özünü göstərən variantlıq dəstgahın kompozisiya quruluşunda mühüm əhəmiyyətə malikdir [9].

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. Azərbaycan musiqi irsinin zəngin sərvəti olan muğam sənəti muğam ifaçılarının yaradıcılığında inkişaf etdirilərək qorunur və təbliğ olunur. “Çahargah” muğamı əsasında apardığımız tədqiqat əsasında bunu bir daha təsdiq edə bilərik. “Çahargah” Şərq xalqları musiqisində geniş yayılmış muğamlardan biridir. “Çahargah” muğamı Orta əsrlərdən - bizim günlərə kimi böyük inkişaf yolu keçmişdir. Muğam irsi görkəmli muğam ustadlarının “Çahargah” muğamının parlaq ifaçılıq təfsirlərini əks etdirən sənətkarlıq nümunələri ilə zənginləşmişdir.

“Çahargah” muğamının ifaçılıq variantlarının müqayisəli öyrənilməsi göstərir ki, hər bir ifaçı muğamı öz yozumunda təqdim edərək, özünəməxsus kompozisiya yaratmışdır. Muğam ifaçılarının sənətkarlığını, təfəkkür zənginliyini üzə çıxaran səs və not yazılarındakı variantlar quruluşuna, diapazon çərçivəsinə, tembr xüsusiyyətlərinə görə nə qədər müxtəlif olsa da, onlar “Çahargah”

muğamının ümumi ruhunu əks etdirərək, milli musiqi irsinə əlamətdar hadisə kimi daxil olmuşdur. Muğam sənətində ifaçılıq variantlarının öyrənilməsi yetişən gənc nəsillər üçün olduqca böyük əhəmiyyətə malikdir və onların hər biri üzərində təhlillər aparılması ifaçılıq ənənələrinin tədqiqinə istiqamət verir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**


1. Abuşova, A.R. "Çahargah" muğamının ifaçılıq variantları səs yazıları və not nəşrlərində. / – Bakı: Konservatoriya. – 2015, №1 (27). – s.10-16.
2. Abuşova, A.R. Musiqişünaslıqda "Çahargah" muğamının tədqiqinə dair. / – Bakı: Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XIV Beynəlxalq elmi-praktik konfransın materialları. ADMİU. – 26 fevral, – 2015. – s.133-135.
3. Abuşova, A.R. "Çahargah" muğamının tarixi və nəzəri tədqiqi məsələləri./ – Bakı: Musiqi dünyası. – 2016, № 4/69. – s.64-65.
4. Abuşova, A.R. "Çahargah" muğamının melodik xüsusiyyətləri və məqam əsası. / – Bakı: Konservatoriya. – 2016, №3 (33). – s. 15-20.
5. Абушова, А.Р. Вопросы исследования мугама «Чахаргях». / – Алматы: Поиск. Научный журнал. – 2017, №4. – с. 38-41.
6. Абушова, А.Р. Ладовая основа мугама-дастгях «Чахаргях». / – Пятигорск. Евразийская лингвокультурная парадигма и процессы глобализации: трансфер культур, русско-кавказские связи. Материалы III Международной научно-практической конференции. – 25-26 мая, – 2017 года. – с.101-104.
7. Abuşova, A.R. "Çahargah" muğam dəstgahının ifaçılıq variantları. / – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları. II cild. – 22-23 noyabr, – 2018. – s. 453-455.
8. Abuşova, A.R. "Çahargah" muğamı Azərbaycan bəstəkarlarının yaradıcılığında. / – Bakı: Musiqi dünyası. – 2018, № 1/74. – s. 66-68.
9. Abuşova, A.R. "Çahargah" muğamının quruluşunda variantlıq məsələləri. / – Bakı: Konservatoriya.– 2019, №4 (46). – s. 32-46.

10. Abushova, A.R. Issues of historical – theoretical research of “Chahargah” mugham in Azerbaijani music art. / – Drohobych: Humanities science current issues. İnteruniversity collection of Drohobych İvan Franko State pedagogical University young scientists research papers. İssue 30. Volume 1. – 2020. – p. 9-15
11. Abuşova, A.R. “Çahargah” muğamının ifaçılıq variantlarının tədqiqi məsələləri. / – Bakı: Bəstəkar və zaman. Respublika elmi konfranslarının materialları və elmi məqalələr toplusu. Ü.Hacıbəyli ad.Bakı Musiqi Akademiyası. – 20-21 aprel, – 2021. – s. 21-30.

Dissertasiyanın müdafiəsi 25 oktyabr 2022-ci il tarixində saat 14:00 Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli, 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.09.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 39 498

Tiraj: 100